

# ÖMRÜ QISA OLSA DA...

## ("Sənət fədailəri" silsiləsindən)

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Onu tanıdığım gündən sevdim, əvvəl bir aktyor kimi, sonra dost olduq. Əslən lənkəranlı idi, İncəsənət institutunu bitirəndən sonra altı il Sumqayıt və Naxçıvan teatrlarında işləmişdi, 1975-ci ildən N.B.Vəzirov adına Lənkəran teatrına gəlmişdi. Bu balacaboylu, deyib-gülən, şən çöhrəli dostum əyalət teatrına bir canlılıq, bir hərarət gətirmişdi.**

Nazir Əliyev bu teatrın səhnəsində saysız-hesabsız rollar oynadı. Lənkəran teatrı o illərdə əyalət teatrları arasında xüsusi çəkisi olan bir sənət ocağına çevrilmişdi. Burada Əməkdar artist Nazir Əliyevin də rolu az deyildi. Xoşbəxtlikdən mən də yolum düşəndə Lənkəran teatrında oynanılan tamaşalara baxırdım. Xüsusilə, Nazirin oynadığı rollar mənə daha xoş gəlirdi. Nazirlə hələ dost olmamışdan öncə onu Naxçıvan teatrında Əziz Nesinin "Toros canavarı" pyesində Duman Osman rolunda görmüşəm. Çox təbii və koloritli oynayırdı. Lənkəran teatrında isə Məmmədhüseyn Əliyevin "Prokuror" pyesində Səlimxan, Y.Qaşekin "Soldat Şveykin macəraları"nda Şveyk, "Lənkəran xanının vəziri"ndə Mirzə Həbib, "Tufan" pyesində Tixon , "Ölülər"də Şeyx Nəsrullah... Və sonra: "Kəndçi qızı"nda Alışov, "Bir kişi vardı" (İsa Hüseynov) pyesində Şeppeli, "Dağılan tifaq"da Həmzə bəy.

Əlbəttə, o illərdə (keçən əsrin 70-80-ci illərində) əyalət teatrlarında da istedadlı rejissorlar, aktyorlar vardı. Amma onların bir çoxu tezliklə Bakıya köçür, buna baxmayaraq Mərkəzdə "ulduz"a çevrilə bilmirdilər. Nazir Əliyev isə Lənkəran teatrında seçilən "ulduz"lardan biri idi.

Yəqin ki, tamaşaçılar Azərbaycan televiziyasında nümayiş etdirilən "Ölülər" komediyasını seyr etmişlər. Söhbət Lənkəran teatrında hazırlanan "Ölülər"dən gedir. Əməkdar İncəsənət xadimi, istedadlı rejissor Baba Rzayevin quruluş verdiyi bu tamaşa çox böyük rəğbətlə qarşılandı. Böyük aktyorumuz Məlik Dadaşov Akademik Teatrın səhnəsində Şeyx Nəsrullah rolunu o qədər uğurlu oynamışdı ki, düşünmək olmazdı kimsə Şeyx Nəsrullahı onun kimi oynaya bilər. Baba Rzayev tərəddüd etmədən bu rolu Nazir Əliyevə tapşırdı. Bilirdi ki, Nazir pyesdə olan ərəb-fars mətnini mənimsəyə bilər, çünki Nazir uşaqlıqdan "Quran" oxuyan kişilərin dizinin dibində oturmuşdu, o sözlərin çoxunu əzbərləmişdi. Bu, məsələnin bir tərəfi. Şeyx Nəsrullahı oynamaq həm də aktyordan böyük məharət tələb edirdi. Mirzə Cəlilin dini fanatizmin qurbanlarını ələ alıb min cür hiylədən çıxan və sonda da çox məharətlə aradan sivişib çıxan bu mənfi tipi oynamaq hər aktyorun nəsibi olmamışdır. Amma Məlik Dadaşovdan sonra Nazir Əliyev də öz bacarığı, məharətli oyunu sayəsində Şeyx Nəsrullahı yenidən "diriltdi".

Nazir Əliyev "Lənkəran xanın vəziri"ndə Mirzə Həbib xanı - vəziri də çox əla oynayırdı. Əgər o zaman bu rolun müsabiqəsi keçirilsəydi, heç şübhəsiz, Nazir birinci yeri tutardı. O, vəzirin təkcə külünclüyünü deyil, həm də faciəsini oynayırdı. Nazir oynadığı hər hansı bir obrazın daxilinə "səfər" etməyi, onun mühitdə, cəmiyyətdə mövqeyini göstərməyə daha çox meylli idi. O, hansı aktyordansa gələn və artıq sxem halına keçən traktovkalardan qaçırdı.

Biz, öncə dediyim kimi dost idik, ara-sıra məktublaşırdıq da. 1987-ci ilin 18 yanvarında mənə yazdığı 11 səhifəlik məktubundan bəzi sətirlərə göz gəzdirirəm. Yazırdı ki: "Səkkiz ildir ki, "Bir kişi vardı tamaşası" (İsa Hüseynovun) teatrımızın repertuarından düşmür. Tamaşa qaldırdığı problemlərinə görə çox müasir və aktualdır. İki il əvvəl teatrdan gedən bəzi aktyorların yerinə yeni ifaçılar tələb olundu, sanki tamaşa özünün yeni həyatına qədəm qoydu. Mədət kişi roluna görə, mən özümü xoşbəxt sanıram. Çünki onun timsalında müasirlərimə, tamaşaçılara çox həqiqətləri deyə bilirəm.

Neçə illik aktyorluq fəaliyyətimdə müxtəlif temperamentli rejissorlarla qarşılaşmışam. Əgər desəm ki, onların hamısı məni bir aktyor kimi təmin edib, yəqin ki, bu cavab təbii səslənməz. Hələ İncəsənət institutunda təhsil alarkən bizə dərs deyən iki ustad rejissor çoxumuz üçün ideal idi. Yəni bu sənətkarların bütün aktyor nəslinin inkişafında xidmətləri təkcə pedoqoji fəaliyyətləri ilə məhdudlaşmır, onların məhz bir rejissor kimi təkrarolunmaz üslublarında üzə çıxırdı. Rza Təhmasib (mən onun kursundaydım) diqqəti əsasən aktyor oyunu üzərinə yönəldirdi, onun fikrincə, hər bir aktyor ŞƏXSİYYƏT olmalıydı. Rza müəllimin rejissor mizanlarını dərk etməyə o qədər də çətinlik çəkmirdik. Lakin bu zaman aktyorun qarşısına çox ciddi vəzifələr qoyulurdu. Aktyor öz fərdi oyun üslubunu təsdiq etməliydi. Nəsir Sadıqzadə isə daha çox rejissor-pedaqoqdu idi. O, aktyoru tərbiyə etməyə çalışırdı. Yəni aktyorun bütün imkan və bacarığını bir məqsəd uğrunda səfərbərliyə alırdı.

Bir də Vaqif müəllim, onu demək istəyirəm ki, bizdə və eləcə də digər dram teatrlarında işləyən rejissorlar əksərən İncəsənət İnstitutunun aktyorluq fakültəsini bitirənlərdir. Əlbəttə, onların içərisində az-çox rejissor kimi formalaşanları (formaya düşənlər desəm, daha dəqiq olar) var. Amma axı, aktyor hər halda aktyordur, o cəhd edir ki, istiqamət verdiyi tamaşanı "mən filan aktyoru hansı rolda görürəm" tempi və duyumu ilə nəzərə çarpdırsın. Bu aktyor - "rejissor" dünən dərs alırdı, göstərişi icra edirdi, bu gün isə özü keçmiş oyundaşlarını (tərəf-müqabillərini) manikenə çevirməyə cəhd edir. Məncə, ixtisaslı rejissor olmalıdır teatrlarda. Təəssüf ki, İncəsənət İnstitutunun rejissorluq fakültəsinə bəzən təsadüfi adamlar daxil olur.



Hələ bizdə elə rejissor yoxdu ki, gəlib desin, filan əsəri filan aktyora görə repertuara salıb (mən Baba Rzayevi istisna edirəm). Məncə, rejissor aktyorun da tərbiyəsi və inkişafı məsələsini nəzərə almalıdır. Bəzən də rejissor əsər seçərkən elə nəhəng müəllifdən yapışır ki, heç aktyorlar və səhnə ölçüsü nəzərə alınmır. Soruşursan - niyə bu əsərə müraciət eləmisən? Cavab verə bilmir. Bəlkə də cavabı budur: müəllifin arxasında gizlənmək...

Aktyora gəldikdə isə, bizim şəraitdə aktyor ən azı ildə 1-2 tamaşada qüvvəsindən tam istifadə etməlidir. "Bizim şəraitdə" dedikdə ...kiçik şəhərin aktyorunun ikinci elə bir yeri yoxdur ki, öz yaradıcılıq odunu söndürə bilsin. Bizim tanınmış aktyorlar deyirlər: "Üç ildə bir dəfə teatrda yaxşı bir rol oynamaq bəsdir". Bəs bu kiçik şəhərin aktyorları üç ildən bir yeni bir rol oynamaq səadətindən məhrumdursa, nə etməlidir?

...Hələ institutda oxuyanda mərhum professor Rza Təhmasibin dərslərinin birində dediyi aşağıdakı sözləri həmişə xatırlayıram: "Oğul, artist öz üzərində işləməlidir. O, tamaşaçıları sənəti ilə məftun etməlidir. Təsəvvür edin ki, tamaşaçı öz zəhməti hesabına qazandığı pulunu verib teatrın kassasından bilet alır. Əgər səhnədə tamaşaçının pulunun müqabilində sənət nümayiş etdirməsən, o, səni söyəcək".

Bu məktubdan da görünür ki, Nazir Əliyev təkcə aktyor deyildi, həm də əsl TEATR ADAMI idi.

90-cı illərin əvvəllərində Nazir Əliyev ailəsi ilə birgə Bakıya köçdü. "Ulduz" olmağamı gəlirdi? Yox, məqsədi bu deyildi. İstəyirdi ki, Bakı teatrlarının birində işə düzəlsin, həm də onu filmlərdə kiçik rollara dəvət edirdilər. Belə də oldu. Nazir Akademik teatrda işə düzəldi, bir neçə tamaşada xırda və ikinci dərəcəli rollar oynadı, bir neçə filmdə epizodik rollara da çəkildi və heç də pis təsir bağışlamadı. Onunla Bakıda tez-tez görüşürdük, çayxanada oturub ötən günləri yad edir, sənət söhbətləri edirdik.

95-ci ilin payızında eşitdim ki, Nazir Dubaya gedib, hardasa işləyir. Xətrimə dəydi bu xəbər.

97-ci ildə isə tabutu gəldi. Xəsətələnmişdi. Nə etmək?

"Dünyaya gəlmək getmək üçündür, bu nə qəmdir?" (Seyid Əzim Şirvani).

**Gərək getməyəydi, xəstələnməyəydi və bizi tərk etməyəydi. Teatr aləmində bir NAZİR yeri boş qaldı.**